

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 129 (21.539)

15 iyul 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycanda rəsmi səfərdə olan Ukrayna Prezidenti Petro Poroşenkonun iyulun 14-də rəsmi qarşılanma mərasimi olub.

Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Petro Poroşenkonun təkbətək görüşü olub.

Görüşdə Ukrayna Prezidenti Petro Poroşenkonun Azərbaycana ilk rəsmi səfərinin önəmi vurğulanıb. Qeyd olunub ki, Azərbaycan-Ukrayna əlaqələrinin böyük tarixi var və xalqlarımız arasında daim dostluq münasibətləri hökm sürüb. İkitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, nəqliyyat və humanitar sahələrdə perspektivləri müzakirə olunub.

Söhbət zamanı ölkələrimiz arasında qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

İyulun 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Petro Poroşenkonun təkbətək görüşündən sonra iki ölkənin Prezidentləri Şurasının Beşinci İclası olub.

Həmin gün Azərbaycan-Ukrayna sənədlərinin imzalanması mərasimi olub.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Petro Poroşenko mətbuata bəyanatlarla çıxış ediblər.

## Müstəqil Azərbaycanın təməlinin qoyulduğu gün

*Müasir Azərbaycan tarixinin dönüş mərhələsini təşkil edən 14 iyul 1969-cu il respublikamızda yeni dövrün, sosial-iqtisadi, mədəni həyatda əsaslı dönüşün başlanğıc günü oldu. Həmin vaxtdan başlayaraq Azərbaycanın gələcək inkişafının fundamental strateji istiqamətləri müəyyənləşdirilib.*

Bu fikirlər iyulun 14-də Naxçıvan şəhərində yerləşən Heydər Əliyev Muzeyində Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyinin təşəbbüsü ilə keçirilən "Ulu öndər Heydər Əliyev və Azərbaycan" adlı elmi-praktik konfransda səsləndirilib.

Konfransı Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyinin sədri Cəbi Quliyev açaraq "Ulu öndər Heydər Əliyev və Azərbaycanın intibahı" mövzusunda məruzə ilə çıxış edib. Bildirib ki, dahi şəxsiyyət 1969-cu il iyulun 14-də ilk dəfə respublikaya rəhbər seçiləndən sonra ölkəmizdə müasir sənaye komplekslərinin yaradılması, kənd təsərrüfatının, elmin, mədəniyyətin, incəsənətin inkişafı istiqamətində qətiyyətli addımlar atılıb. O vaxtdan başlayaraq Azərbaycan ümummilli liderin rəhbərliyi ilə sürətlə inkişaf edərək 13 il ərzində Sovet İttifaqında ən qabaqcıl yerlərdə qərar tutub. Həmin dövrdə Sovet İttifaqında cəmi iki respublika özünü iqtisadi cəhətdən tam təmin edirdi və ümumittifaq büdcəsinə öz töhfəsini verirdi. Onlardan biri də Azərbaycan idi.



"Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda çıxış edən Naxçıvan Dövlət Universiteti Tələbə-Gənclər Təşkilatının sədri Arzu Abdullayev qeyd edib ki, ölkəmizin müstəqilliyinin və dünya iqtisadiyyatına sürətli inteqrasiya prosesinin hazırkı möhkəm təməli məhz ulu öndərin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illərdə yaradılmış potensiala əsaslanır. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqın və dövlətin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş dahi şəxsiyyətin əsasını qoyduğu siyasi strategiya bu gün Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

"Ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu hər iki dövrdə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına diqqət daha da artırılıb. 1995-ci il noyabrın 12-də referendumla qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası Naxçıvanın muxtariyyət statusunu hüquqi cəhətdən möhkəmləndirib", – deyən Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Gülnar Yüzbaşıyeva qeyd edib ki, ulu öndərin bütün həyatı və fəaliyyəti Naxçıvanla daim sıx bağlı olub. Belə ki, birinci dəfə hakimiyyətdə olduğu dövrdə ümummilli lider Naxçıvana 5 dəfə səfərə gəlib, hər səfərində sosial-iqtisadi inkişafla bağlı məsələləri araşdıraraq muxtar respublikanın sənayesi və kənd təsərrüfatının aktual problemlərini diqqət mərkəzində saxlayıb, onların təcili həlli üçün müvafiq qərarlar qəbul edib və bütün zəruri addımları atıb. Nəticədə, Naxçıvan 1970-1980-ci illərdə özünün sosial-iqtisadi yüksəliş dövrünü yaşayıb, qısa müddətdə intensiv inkişafa nail olunub.

Sonda tədbir iştirakçıları "Ulu torpaq, ulu öndər" filminə baxıblar, Heydər Əliyev Muzeyinin ekspozisiyası ilə tanış olublar.

## Ədliyyə Nazirliyi Ordubad rayonunda seminar-müşavirə keçirib



***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Ordubad rayonunda inzibati ərazi dairəsi üzrə nümayəndəliklər tərəfindən doğum, nikah və ölüm qeydiyyatı zamanı qanunvericiliyin tələblərinə riayət olunması ilə bağlı seminar-müşavirə keçirib.***

Tədbiri giriş sözü ilə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov açıb.

Seminar-müşavirədə Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev məruzə edərək bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin 2002-ci il 31 iyul tarixli Fərmanına əsasən, rayon mərkəzindən kənarda yerləşən qəsəbə və kənd sakinləri üçün daha münasib şəraitin yaradılması, onların rahatlığının təmin edilməsi, doğum, nikah və ölüm qeydiyyatının daha operativ həyata keçirilməsi məqsədilə nikahın, doğumun və ölümün dövlət qeydiyyatını rayon (şəhər) qeydiyyat şöbələri ilə yanaşı, icra hakimiyyətlərinin nümayəndəlikləri aparır.

Ötən dövr ərzində Naxçıvan Muxtar Respublikasının bütün rayonlarında icra nümayəndəlikləri üçün seminarlar təşkil edilib və onlar müvafiq normativ-hüquqi aktlarla təmin olunublar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində regionumuzun bütün rayonlarında yerli icra nümayəndəlikləri üçün yeni inzibati binalar tikilib və müasir standartlara uyğun iş şəraiti yaradılmış. Məhz bu diqqət və qayğı nəticəsində Ordubad rayonunun icra nümayəndəlikləri də müasir inzibati bina və iş şəraiti ilə təmin olunublar.

Qeyd olunub ki, yaradılan bu şərait icra nümayəndələrinin üzərinə mühüm vəzifələr qoyur. Hər bir icra nümayəndəsi "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikasının Ailə Məcəlləsinin, kargüzarlıq qaydalarını müəyyən edən təlimatın tələblərinə əməl etməli və vətəndaşlıq vəziyyəti aktları qeydə alınmasına görə dövlət rüsumu ödənildikdən sonra müvafiq əməliyyatı rəsmiləşdirməlidir. Xüsusilə nikah qeydiyyatı zamanı müraciət etmiş şəxslərin iştirakı təmin edilməli və tibbi müayinə arayışı ərizə ilə birlikdə alınmalıdır. Hər bir icra nümayəndəsi qeyd olunanlardan nəticə çıxarmalı və fəaliyyətini qanunvericiliyə uyğun təşkil etməlidir.

Sonda seminar-müşavirə iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Tədbirə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov yekun vurub.

## Şahbuz rayonunda sığorta fəaliyyətinin təşkili müzakirə edilib

***Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi Şahbuz Rayon İcra Hakimiyyəti ilə birgə rayonda sığorta işinin təşkili və qarşıda duran vəzifələrlə bağlı tədbir keçirib.***

Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev tədbiri açaraq son illərdə Şahbuzda sığorta fəaliyyəti sahəsində görülmüş işlər barədə məlumat verib.



Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək sığorta fəaliyyətinin muxtar respublikamızın sosial-iqtisadi həyatındakı rolundan danışıb. Qeyd olunub ki, sığortalı yaşayıb, işləmək müasir insan həyatının mühüm tələbatlarından biridir. Belə ki, cəmiyyətdə sosial həyatın fəallaşması, iqtisadiyyatın dinamik inkişafı müxtəlif sahələrdə sığorta münasibətlərinin genişlənməsinə zəmin yaradır. Vurğulanıb ki, müxtəlif risklər doğuran gözlənilməz hadisələr zamanı insanların sağlamlığına, daşınmaz əmlaka, avtomobillərə, kənd təsərrüfatına dəymiş maddi zərərlərə sığorta təminatı verilməsi, son nəticədə, cəmiyyətin ümumi rifahına xidmət edir. Bu baxımdan ölkəmizdə qüvvədə olan mövcud qanunlara əsasən, vətəndaşlara və sahibkarlara məxsus daşınmaz əmlakın, avtonəqliyyat vasitələrinin və mülki məsuliyyətin icbari qaydada sığortalanması gözlənilməz hadisələrdən dəyən maddi zərərlərin ödənilməsinə etibarlı təminat verir.

Tədbirdə baş vermiş sığorta hadisələri barədə konkret misallar gətirilərək dəymiş zərərlərin ödənilməsi barədə məlumat verilib. Vurğulanıb ki, ötən müddətdə Şahbuz rayonunda bu istiqamətdə xeyli iş görülüb, müxtəlif sığorta növləri üzrə bağlanılan müqavilələrin sayında artım olub. Rayonda daşınmaz əmlakın, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə hələ də sığorta olunmayan hüquqi və fiziki şəxslər qalmaqdadır. Nəzərə çatdırılıb ki, ölkəmizdə qüvvədə olan qanuna əsasən, icbari qaydada sığortanın şamil edildiyi bütün obyektlərin sığortası təmin olunmalıdır. Bu məqsədlə Şahbuz rayonunda vətəndaşlar arasında sığorta maarifləndirilməsi işlərinə diqqətin daha da artırılması və ayrı-ayrı sığorta növləri üzrə işlərin genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Könüllü sığorta növlərindən biri olan kənd təsərrüfatı sığortasının da əhəmiyyətinə toxunan Hikmət Əsgərov bildirib ki, bu il martın 29-da "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində Naxçıvan Muxtar Respublikasında aqrolizinq sahəsində fəaliyyətin təşkili və yaz-tarla işlərinə hazırlığın vəziyyəti ilə əlaqədar keçirilən səyyari müşavirədə muxtar respublikada əkin sahələrinin, meyvə bağlarının, lizinqə verilən kənd təsərrüfatı texnikalarının sığortalanmasının təmin olunması tapşırığı verilib. Bu sahədə də Şahbuzdakı fermer və torpaq mülkiyyətçiləri, kənd təsərrüfatı texnikaları sahibləri ilə aparılan maarifləndirmə və təşkilati işlər genişləndirilməlidir.

Bildirilib ki, kənd təsərrüfatı məhsullarının sığortası, ev əmlakının sığortası, fərdi qəza sığortası kimi bütün könüllü sığorta növləri, son nəticədə, gözlənilməz hadisələrə qarşı təminat verir.

Tədbirdə Şahbuz Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi Razim Vəliyev və Şahbuz Rayon Polis Şöbəsinin Dövlət yol polisi qrupunun baş dövlət avtomobil müfəttişi Etibar Nağıyev icbari sığortaların vəziyyəti barədə məlumat veriblər.

Tədbirə Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev yekun vurub.

**Xəbərlər şöbəsi**

# Duzdağın ətəyində ucaldılan zavodlar

## İnşaat obyektlərinə “Duzdağ ömrü” bəxş edən müəssisələrdən biri – Naxçıvan Sement Zavodu



***Uzun illərdir, Avropada yaşayan, biznes fəaliyyəti ilə məşğul olan dostum Tahirin Türkiyəyə gəldiyini eşidib telefon əlaqəsi saxladım.***

– Sabah gəlirəm Naxçıvana. Darıxmışam doğma şəhərimiz, kəndimiz üçün. Dünyanın işini bilmək olmaz, – deyib xudahafizləşdik.

Ertəsi gün Sədərək gömrük-keçid məntəqəsində onu qarşıladım. Mobil telefonla danışırdı. Bir az gözləməli oldum. Söhbətini yekunlaşdırıb:

– Dayımla danışırdım. Deyir ki, Naxçıvan şəhəri tanınmaz dərəcədə dəyişib. Bizim evi isə heç tanımayacaqsan. Sən gördüyün ikimərtəbəli yastı-yapalaq binanın yerində indi çoxmərtəbəli bina ucaldılıb. Elə biz sakinlərə də burada hər cür şəraitə malik gözəl mənzillər verilib. Şəhərə çatan kimi bizə gəlin. Bir stəkan çayımızı için. Sonra da şəhəri gəzər, qohum-əqrəba ilə haləhval tutarsınız. Mən də ağsaqqal kişinin sözünü yerə salmadım, – dedi.

– Dayın haqlıdır. Naxçıvanın siması tanınmaz dərəcədə dəyişib. İnsanda xoş ovqat yaradan, müasir memarlıq üslubu ilə gözoxşayan, bir-birindən yaraşıqlı inzibati və ictimai yaşayış binaları həyata vəsiqə alıb. Şəhərimizin gözəlliyinə xələl gətirən, istismar müddəti başa çatmış ictimai yaşayış binalarının yerində çoxmərtəbəli binalar ucaldılıb. Sakinlər daha gözəl, ən başlıcası isə təhlükəsiz mənzillərlə təmin ediliblər, – dedim.

Beləcə, Naxçıvan-Sədərək magistral avtomobil yolu ilə üz tutduq Naxçıvan şəhərinə. Şərur və Kəngərli rayonlarının yol kənarında yerləşən ayrı-ayrı yaşayış məntəqələrindəki quruculuq ərməğanlarını heyranlıqla seyr edən dostum, – bu layihələrin həyata keçirilməsi üçün min tonlarla sement tələb olunar. Bu qədər sement haradan alınıb gətirilir? – deyə soruşdu.

– Elədir, müxtəlif layihələrin həyata keçirilməsi üçün inşaat materialı kimi sementə tələbat artıb. Əvvəllər bu binalar xaricdən alınıb gətirilən sementlə tikilirdi. “Görəsən, keyfiyyəti necədir?” sualı ilə baş-başa qalırdıq. Naxçıvan Sement Zavodunun tikilib istifadəyə verilməsi ilə bu problem aradan qaldırılıb.

– Nə? Naxçıvanda Sement Zavodu tikilib?

– Bəli, düz eşitdin. İndi Naxçıvan sement idxal edən bölgədən sement ixrac edən bölgəyə çevrilib.

Elə söhbətimizin bu əsnasında Kəngərli rayonunun Böyükdüz massivində salınmış sənaye şəhərciyinə yaxınlaşdıq. Maşını yolun kənarına çəkib saxladım. Bu da haqqında danışdığımız Naxçıvan Sement Zavodu, – dedim.

Duzdağın ətəyində ucaldılan, özü də sovet hökumətinin 70 ildə qura bilmədiyi sənaye müəssisələrini seyr edən dostum həyəcanla dedi: – Bu ki nəhəng zavodlardır.

– Bəs necə? Naxçıvanda elə-belə iş görülməz. İş görüləndə də nəhəng işlər görülər.

Yolçu yolunda gərək, – deyib əyləşdik maşına. Artıq hava qaralmaqda idi. Duzdağ yoluna qalxdıqda görünən Naxçıvan şəhərini, gözoxşayan, sayrışan ulduzları xatırladan elektrik lampalarının bərq vurduğu ecazkar bir mənzərəni seyr edən dostum:

– Mən bura gələndə gördüyüm zülmətə qərq olmuş, ümidi çıraq işığına qalmış Naxçıvan indi dünyanın ən gözəl şəhərlərinə bənzəyir. Bu, inanılmazdır. Gərək mən də ata yurdumda bu gözəlliyə yaraşan bir fərdi ev tikdirəm. Doğrusu, yadımdan çıxdı soruşam, sementin qiyməti, keyfiyyəti necədir?

– Narahat olma. Naxçıvan sementinin münasib qiymətinə, keyfiyyətinə də söz ola bilməz. Bu, sən gördüyün “sovet sementi – təndir külü” deyil ki, tikdiyin uçub tökülsün. El dili ilə desək, bir araba sementə beş araba qum qatıb tikirsən. Özü də sonra bir çimdik belə qopara bilmərsən. Necədir?

– Daha bunu soruşmazlar, – dedi.

Beləcə, dostum Tahirlə iki gün müddətində Naxçıvanın bütün bölgələrini gəzdik. Amma hər şey zamana baxsa da, zaman heç nəyə baxmır, – deyiblər. Onun burada olacağı müddət başa çatdı. Sədərək gömrük-keçid məntəqəsindən yola salarkən:

– Ay Tahir, çalış qohum-əqrəbaya vaxt ayır, tez-tez baş çək, – dedim.

Beləcə, dostumla xudahafizləşib üz tutdum nəhənglərin qərar tutduğu ünvana – qədim Duzdağın ətəyində salınmış sənaye şəhərciyinə. Nəhənglərdən biri – Naxçıvan Sement Zavodunda görüşdüyüm mütəxəssislərin söylədiklərindən:

– “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqının mütəxəssisləri tərəfindən sement istehsalı üçün xammal mənbələrinin müəyyən olunması məqsədilə geoloji axtarışlar aparılıb. Yataqlarda lazımi xammal aşkar olunduqdan sonra onun tərkibi Türkiyənin Sement İstehsalçıları Birliyi tərəfindən və Çin Xalq Respublikasının bu sahə üzrə ixtisaslaşmış laboratoriyalarında yoxlamadan keçirilib. Laboratoriyalardan müsbət rəylər alındıqdan sonra Kəngərli rayonunda 150,6 hektarlıq ərazidə yeni zavodun tikintisinə başlanılıb, 2012-ci ildə Naxçıvan Sement Zavodunun tikintisi uğurla başa çatdırılıb. Öz əhəmiyyətinə və çəkilən xərclərin miqyasına görə son 20 ilin ən böyük layihələrindən olan zavodun inşası “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqının təcrübəli mütəxəssisləri və inşaatçıları tərəfindən həyata keçirilib. Burada istehsal sahələri, xammal və hazır məhsulların saxlanılması üçün anbar, inzibati və iaşə xidməti binaları tikilib, Naxçıvan-Sədərək magistralından zavodadək 2 kilometr məsafədə yeni avtomobil yolu çəkilib, asfalt-beton örtük salınıb, yüksəkkeyfiyyətli məhsul istehsalı ilə yanaşı, hazır məhsulun daşınmasına da hərtərəfli şərait yaradılıb.

2012-ci il mayın 30-da muxtar respublikamızda səfərdə olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Sement Zavodunun açılış mərasimində iştirak edib.

### *Müasir quru üsulla sement istehsal edilən zavod*

Çin və Türkiyə istehsalı olan avadanlıqların quraşdırıldığı ağır sənaye müəssisəsində 18 əsas istehsal bölməsi mövcuddur. Bütün xammal növləri muxtar respublikanın yataqlarından əldə olunur. Əsas xammal olan əhəngdaşı, mergel və köməkçi xammallar – dəmirli gil Kəngərli rayonunun Çalxanqala, kvars Şərur rayonunun Gümüşlü, gips isə Babək rayonunun Nehrəm kəndləri yaxınlığındakı yataqlardan çıxarılır. Məlumat üçün qeyd edək ki, zavodda sement müasir quru üsulu ilə istehsal edilir. Region ölkələrində bu üsulla sement istehsal edən çox az müəssisə var. Quru üsulla sement istehsalı zavodun yanacaq sərfini minimuma endirir. Keyfiyyət göstəriciləri ilə seçilən bu yerli məhsulun tanıdılması istiqamətində tədbirlər həyata keçirilir, Naxçıvan sementi ölkəmizin müxtəlif regionlarına, eləcə də Türkiyəyə və Gürcüstana göndərilir.

### *Zavod “CE” keyfiyyət nişanına layiq görülüb*

İstehsal prosesinin konveyer üsulu ilə təşkil edildiyi müəssisədə texnoloji proseslərə ciddi əməl edilir. Blok şəklində müəssisəyə daxil olan xammal müxtəlif mərhələlərdən keçməklə kiçik ölçülərdə doğranıb qarışıqlarla birlikdə 1400-1600 dərəcə istilikdə bişirilir. Hazır məhsul sonrakı mərhələdə üyüdülüb 50 kiloqramlıq kisələrdə qablaşdırılaraq “Naxçıvan sement” tanıtım nişanı ilə satışa çıxarılır. Naxçıvan Sement Zavodu “CE” keyfiyyət nişanına layiq görülüb. Bu keyfiyyət nişanı məhsulun Avropa tələblərinə uyğunluğunun göstəricisidir. Yeri gəlmişkən bildirək ki, keyfiyyət nişanı Avropa Birliyində akkreditasiyadan keçmiş Türk Standartlar İnstitutunun mütəxəssisləri tərəfindən istehsal prosesindəki avadanlıqlar, keyfiyyətə nəzarət cihazları, istehsal prosesində əməyin və ətraf mühitin mühafizəsi nəzərə alınaraq qiymətləndirilib. Eyni zamanda Türk Standartlar İnstitutu tərəfindən keyfiyyətin yoxlanılmasında istifadə edilən bütün ölçü cihazlarının və avadanlıqların da kalibrlənməsi aparılıb. Onu da qeyd edək ki, Avropa tələblərinə uyğunluğun göstəricisi olan bu keyfiyyət nişanının verildiyi hər bir müəssisənin məhsulu Türk Standartlar İnstitutu tərəfindən 6 aydan bir həmin institutun tikinti materialları laboratoriyasında kimyəvi və fiziki keyfiyyət göstəriciləri baxımından yoxlanılır.

### *Keyfiyyətə nəzarət müasir tələblər səviyyəsində qurulub*

Zavodda istehsal xəttinə daxil olan xammalın, qatqı maddələrinin, istehsal olunan məhsulun keyfiyyətinə nəzarət müasir avadanlıqlarla təchiz edilmiş laboratoriyada həyata keçirilir. Burada quraşdırılan avadanlıqlarla istehsalat xəttindən saatda bir dəfə nümunələr alınaraq kimyəvi, fiziki və mexaniki analizlər aparılır. Bu analizlərin nəticəsi həm istehlakçıya verilir, həm də zavodun arxivində saxlanılır. Hər iki aydan bir klinkerlərin laborator analizləri Türkiyə Respublikasında həyata keçirilirdisə, yeni avadanlıqların quraşdırılmasından sonra bu problem aradan qaldırılıb, laboratoriyada Almaniya istehsalı olan müasir avadanlıqlar quraşdırılıb, mikroskopik analizlərin zavodda fəaliyyət göstərən laboratoriyada aparılması təmin edilib.

### *Zavodun istehsal gücü artırılıb*

Yüksək keyfiyyət göstəriciləri ilə seçilən yerli inşaat materialı obyektlərin, ayrı-ayrı beton zavodlarının vaxtında və keyfiyyətli sementlə təmin olunmasına əlverişli şərait yaradıb. Daxili və xarici bazarda Naxçıvan sementinə artan tələbatın ödənilməsi məqsədilə zavodda yeni bir layihənin həyata keçirilməsi zərurəti yaranıb, istehsal xəttində klinker (hazır məhsul) çənləri ilə üyütmə bölməsi arasında yeni bölmə yaradılıb. Layihəyə uyğun olaraq, zavodda yeni bölmə üçün bina inşa olunub. Dünyada sement zavodları qurmaq sahəsində qabaqcıl təcrübəyə malik Almaniyanın “KHO”, “Polysims”, Danimarkanın “Flsm.dth” firmalarını soba, daşqırıcılar və üyüdücülərlə təmin edən Çin Xalq Respublikasının “Jiangsu Pengfei Group Co.LTD” şirkətindən müasir texnoloji avadanlıqlar alınıb, həmin şirkətin mütəxəssisləri tərəfindən quraşdırılıb. Yeni bölmənin istifadəyə verilməsi istehsal prosesinin daha da təkmilləşdirilməsinə səbəb olub, klinkerlərin daha kiçik formada parçalanmasına və üyütmə prosesinə müsbət təsir göstərib, yeni çeşiddə sement istehsalına və zavodun istehsal gücünün artmasına imkan verib. Gündəlik istehsal gücü 800 tondan 1300 tona çatdırılan zavodda hazırda tələbata uyğun məhsul istehsal olunub satışa çıxarılır.

### *Ekoloji tarazlığın qorunması diqqət mərkəzində saxlanılıb*

Zavodun ətraf mühitə mənfi təsirinin minimum səviyyəyə endirilməsi üçün də bütün vacib tədbirlər həyata keçirilib. Bunun üçün burada dünya standartlarına uyğun avadanlıqlar quraşdırılıb. İstehsalat xəttində qırma, üyütmə və nəql kimi fiziki, bişirməyə hazırlıq üçün ilkin isitmə, ilkin kalsinasiya və yekun bişirmə kimi kimyəvi proseslər nəticəsində əmələ gələn toz və tüstü xüsusi tutucularla zərərsizləşdirilir.

Zavodun ətrafındakı ərazilərdə geniş yaşıllaşdırma tədbirləri həyata keçirilib. Bu məqsədlə 12 hektarlıq əraziyə 20 minə yaxın ağac əkilib, abadlaşdırma işləri aparılıb.

Yeni istehsal müəssisəsi əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayır. Zavoddakı işçilərin əksəriyyəti muxtar respublika sakini olan gənclərdir. Müəssisədə texniki təhlükəsizlik, əməyin mühafizəsi və yanğından mühafizə qaydalarına ciddi əməl edilir. Burada çalışanlar üçün normal iş şəraiti yaradılıb, onlar yüksək əmək haqqı, xüsusi geyim formaları və servis xidməti ilə təmin olunublar.

Kərəm HƏSƏNOV

***Muxtar respublikada bütün yaşayış məntəqələri, istehsal və xidmət sahələri qazlaşdırılmışdır. 2016-cı ilin birinci yarısında 715-i əhali, 63-ü qeyri-əhali olmaqla, 778 müxtəlif təyinatlı obyektlərə yeni qaz xətləri çəkilmiş, muxtar respublika üzrə təbii qaz istehlakçılarının ümumi sayı 86 mini ötmüşdür.***

# Muxtar respublika üzrə təbii qaz istehlakçılarının sayı 86 mini ötmüşdür

“Naxçıvanqaz” İstehsalat Birliyi qaz verilişində fasilələrin yaranmaması üçün müvafiq tədbirlər görür, təhlükəsizlik məsələlərini daim diqqət mərkəzində saxlayır. Ötən dövrdə də magistral qaz kəmərlərində elektrokimyəvi mühafizə qurğularına mütəmadi nəzarət edilmiş, korroziyaya uğrayan hissələr yenilənmişdir. Korroziyaya uğramış boruların dəyişdirilməsi, yol-tikinti, yenidənqurma və abadlaşdırma işlərinin aparılması ilə əlaqədar olaraq 131 min paqonometrdən artıq müxtəlif diametrli boru istifadə edilmişdir. Həmçinin “Naxçıvanqaz” İstehsalat Birliyində nəzarət ölçü cihazlarının yoxlanması üçün laboratoriya qurulmuşdur.

İlin birinci yarısında qəza dispetçer xidmətləri 10 min 712 sızma aşkarlayaraq aradan qaldırmış, istismara yararsız olan qaz sayğacları yenilənmiş, Naxçıvan şəhərində 2672 smartkarttipli sayğac quraşdırılmışdır.

Birliyin əməkdaşları ötən aylar ərzində müvafiq qurumlarla birlikdə muxtar respublika ərazisində reydləri davam etdirmiş, aşkar olunan nöqsanlar aradan qaldırılmış, təbii qazdan təhlükəsiz istifadə qaydaları haqqında maarifləndirmə işi gücləndirilmişdir. Həmçinin kadr potensialının artırılması, qaz istismarı sahəsində çalışanların ixtisas dərəcəsi və peşəkarlıq səviyyəsinin yüksəldilməsi də diqqət mərkəzində saxlanılmışdır.

*“Naxçıvanqaz” İstehsalat Birliyinin mətbuat xidməti*

# İstehlak mallarının ekspertizası beynəlxalq standartlara uyğun aparılır



***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində fəaliyyət göstərən “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən ərzaq mallarının keyfiyyətinə nəzarət davam etdirilir.***

Ötən illər ərzində cəmiyyətin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mütəmadi olaraq məqsədyönlü tədbirlər həyata keçirilib, ABŞ, Almaniya, İngiltərə, Polşa, İtaliya, Türkiyə istehsalı olan, beynəlxalq standartlara uyğun laboratoriya avadanlıqları alınıb quraşdırılıb. Laboratoriyada mütəmadi olaraq yerli və idxal məhsullarından nümunələr götürülərək təhlillər aparılıb. Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində aparılan dövlət nəzarətinin bir hissəsini də yerli istehsal və idxal məhsullarının orqanoleptik, fiziki-kimyəvi, mikrobioloji və toksikoloji göstəricilərinin yoxlanması təşkil edir.

“İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətindən verilən məlumata görə, 2016-cı ilin ilk 6 ayı ərzində 527 halda hüquqi və 788 halda fiziki şəxslər tərəfindən daxil olmuş 79 mal çeşidini əhatə edən 1315 halda mal nümunəsi laboratoriya analizindən keçirilib və 994 halda səyyari laboratoriya təhlilləri aparılıb. Aparılmış laboratoriya təhlilləri, əsasən, 894 yerli istehsal məhsullarını və 421 idxal məhsullarını əhatə edib. Nəticədə, 1302 halda məhsulun keyfiyyət göstəricilərinin normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi, 13 halda mal nümunəsinin keyfiyyət göstəricilərinin aşağı olduğu müəyyən edilib. Məhsulların keyfiyyətində yaranmış nöqsanların aradan qaldırılması üçün qanunvericiliyə uyğun müvafiq tədbirlər görülüb.

Cari ilin ilk 6 ayı ərzində “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqına 6225,58 ton sement, 8,51 ton travertin və mərmər, 12044,041 ton mebel dəsti, 1,365 ton döşək, 22,837 ton məsaməli beton və 550 ton sement istehsalı üçün klinker yarımfabrikatı məhsullarının Gürcüstan və Türkiyə respublikalarına ixracı üçün 31 halda, “Təchizat” ATSC-yə 254,69 ton iribuynuzlu heyvan dərisinin Türkiyə Respublikasına ixracı üçün 10 halda, “Naxçıvan Məhsulları” MMC-yə qablaşdırılmış bitki çayları, alkoqollu içkilər və mürəbbə məhsullarının Yaponiyada keçiriləcək sərgiyə aparılması üçün 15 halda, “Naxçıvan Avtomobil Zavodu” MMC-yə Belarus Respublikasına ixrac edilmiş 3 ədəd avtomobilə 1 halda, “Babək Sirab” ASC-yə 99,954 litr “Sirab” mineral sularının Türkiyə Respublikasına ixracı üçün 4 halda, “Babək Şərab-2 Yeddilər ASK” MMC-yə 316,5 litr meyvə araqlarının Bakı şəhərindəki beynəlxalq hava limanından ixracı üçün 1 halda olmaqla, cəmi 62 halda mənşə sertifikatı verilib.

Xəbərlər şöbəsi

## İstedadlı qadınların əl işlərindən ibarət növbəti sərgi-satış Culfa rayonunda təşkil edilib



***Xəbər verdiyimiz kimi, iyunun 29-dan muxtar respublikanın rayonlarında istedadlı qadınların əl işlərindən ibarət sərgi-satışların təşkilinə start verilib. Növbəti belə sərgi Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Culfa Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Culfa rayonunda keçirilib.***

Sərginin açılış mərasimində Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev çıxış edərək muxtar respublikada, eləcə də Culfa rayonunda qadınlara göstərilən diqqət və qayğıdan danışıb. Qeyd olunub ki, həyata keçirilən dövlət-qadın siyasətinin tərkib hissəsi olaraq istedadlı qadınların fəaliyyətlərinin dəstəklənməsinə xüsusi diqqət yetirilir. Qadınların əl işlərindən ibarət sərgilərin təşkil olunması da bu tədbirlərin davamı kimi mühüm əhəmiyyət daşıyır. Bundan sonra da istedadlı qadınların əl işlərinin sərgi-satışı davam etdiriləcəkdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək deyib ki, Culfa rayonunda da yaşayan qadınlar dövlət quruculuğunda, ictimai həyatda fəal iştirak edir, muxtar respublikamızın sosial və mədəni inkişafına öz töhfələrini verirlər. Təsadüfi deyil ki, Culfa rayonu ərazisindən Azərbaycan Respublikası Milli Məclisinə 1 qadın deputat, yerli özünüidarəetmə orqanlarına 38 qadın üzv seçilib, rayonda fəaliyyət göstərən 5 təhsil müəssisəsinin, 2 mədəniyyət müəssisəsinin rəhbəri vəzifəsinə qadın təyin edilib, qadınların dövlət qulluğunda, hüquq-mühafizə orqanlarında təmsilçiliyi genişlənib. Ramilə Seyidova qeyd edib ki, bu gün Culfa rayonunda yaşayan istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışın təşkil edilməsində məqsəd rayon üzrə qadınlarımızın istedad və bacarıqlarını üzə çıxarmaq, milli dəyərlərimizi, adət-ənənələrimizi gənclərə aşılamaq, yüz illərdir, ailələrimizdə qorunub saxlanılan mənəvi irsimizi, zəngin dəyərə malik olan həyat tərzimizi ilmələrə, tablolara köçürmək və yaşatmaqdır.

Sonra sərgi-satışa baxış olub. Sərgi-satışda rayon üzrə 40 istedadlı qadının 250 rəsm və əl işinin satışı təşkil olunub.

İstedadlı qadınlardan Aidə İbrahimova, Kəmalə Səfərova, Nərmin Əliyeva və başqaları qadınlara göstərilən qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, sərgi-satış iki gün davam edəcəkdir.

**Sara ƏZİMOVA**

***Kəngərli rayonunun Şahtaxtı Kənd Mərkəzində “Ailələrdə sağlam həyat tərzinin aşılanması, reproduktiv sağlamlıq, erkən və qanqohumluğu nikahlarının fəsadları” mövzusunda tədbir keçirilib. Tədbiri Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini Səriyyə Qurbanova açıb.***

## Ailələrdə sağlam həyat tərzinin təbliği məqsədilə maarifləndirici tədbirlər keçirilir

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova “Ailədə qadının sağlam həyat tərzi aşılamasında əsas rolu” mövzusunda çıxış edərək bildirib ki, ailənin xoşbəxtliyi onun möhkəmliyindən asılıdır. Ailə nə qədər güclüdürsə, cəmiyyət də bir o qədər möhkəmdir. Məhz elə buna görə sağlam ailələrin qurulması üçün dövlətimiz tərəfindən konkret işlər görülür. Son illər Ailə Məcəlləsində qızlar üçün nikah yaşı 18-ə qaldırılıb. Artıq ailə həyatı quranlar nikahdan əvvəl icbari olaraq tibbi müayinədən keçirilirlər. Cinayət Məcəlləsində qadını, xüsusən yetkinlik yaşına çatmayan qızları nikaha daxil olmağa məcbur etməyə görə məsuliyyət müəyyən olunub. Ailəyə yönəlmiş tibbi xidmət infrastrukturunun, o cümlədən reproduktiv sağlamlığın qorunması sisteminin daha da təkmilləşdirilməsi üçün “Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı” təsdiq edilib.

Qeyd olunub ki, ailə institutunun möhkəmliyi cəmiyyətin və dövlətin güclənməsi və inkişafı ilə birbaşa bağlıdır. Bu mənada, ailə qanunvericiliyi ailələrin möhkəmləndirilməsi zərurətini, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hissləri əsasında qurulmasını, ailə üzvlərinin ailə qarşısında məsuliyyətini, onların hüquqlarının maneəsiz surətdə həyata keçirilməsini müəyyən edib.

Vurğulanıb ki, Azərbaycan ailəsində valideyn-övlad münasibəti milli dəyərlərimiz əsasında qurulub. Uşaqlar böyüyə hörmət, milli adət-ənənələrə ehtiram ruhunda tərbiyə olunurlar. Məhz qarşılıqlı hörmətin mövcud olduğu ailə nümunəvi hesab edilir. Ailə üzvləri arasında səmimi, mədəni münasibət, böyük-kiçik yerinin bilinməsi, valideyn-övlad münasibətlərinin düzgün qurulması xalqımızın adət-ənənələrinə xas olan keyfiyyətlərdir. Belə ki, ailə adət-ənənəmizdə çoxəsrlik tarixə malik olan ağsaqqal və ağbirçək institutu mövcuddur. Məhz bu institutun fəaliyyəti ailə üzvləri, eləcə də ailələr arasında ünsiyyətin formalaşmasında, ailə xüsusiyyətlərinin nəsildən-nəslə ötürülməsində mühüm rol oynayır.

Sonra Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva qadınların sağlamlıqlarının qorunması yolları, reproduktiv sağlamlıq barədə slayd vasitəsilə tədbir iştirakçılarına məlumat verib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

***Təxminən, üç il bundan əvvəl Naxçıvanın brend şəhər kimi tanınması üçün geniş imkanlara malik olduğu haqda bir yazı hazırlamışdım. Yazıda Naxçıvan şəhərinin, ümumilikdə isə muxtar respublikanın ölkəmizdən kənarda tanıdılması üçün brendinq siyasətinin vacibliyindən bəhs etmiş, bu istiqamətdə mövcud imkanlardan düzgün istifadə olunmasının zəruriliyini qeyd etmişdim. Dünya təcrübəsi göstərir ki, turizm mövcud imkanlardan düzgün istifadə edildikdə öz bəhrəsini verir. Əks təqdirdə, nə qədər əmək sərf etsən də, istənilən uğuru qazanmaq mümkünsüzdür.***




## çevrilməsi üçün geniş imkanları var

Əsas mövzuya keçməzdən əvvəl Naxçıvanın nəyə görə brendləşməyə ehtiyacının olduğunu qeyd etmək istərdik. Buna görə də gəlin belə bir suala cavab verək: “Naxçıvan” deyəndə ilk ağlımıza nə gəlir? Təbii ki, bu suala veriləcək cavablar çoxdur. Amma ilk üçlükdə bu diyarın qədimliyi, zəngin tarixi abidələrə malik olması, gözəl təbiəti verdiyimiz cavabların əsasını təşkil edəcək. İndi gəlin digər suala cavab tapaq: məgər dünyanın başqa ölkələrində qədim tarixə, abidələrə və yaxud təbiətə malik yerlər yoxdurmu? Əlbəttə, var. Bəs bu sualları əcnəbilərə versək, necə? Düşünürəm ki, Naxçıvanda olmayan, ancaq bura haqqında ilkin məlumatlara malik olan əcnəbi də yuxarıda səsləndirdiyimiz ümumi cavabları verəcək, yəni konkret ünvanlar haqqında nə isə deməyə çətinlik çəkəcək. Məsələ bir daha bizə aydın olsun deyə, əvvəlki yazıda gedən bir hissəni təkrarən oxucularımızın diqqətinə çatdırırıq: “...Paris dedikdə ilk olaraq ağlımıza nə gəlir? Bəs Venesiya? İstanbul? Nyu-York? Qeyd edək ki, dünyanın bu məşhur şəhərlərinin hər birinin adı çəkilərkən düşüncəmizdə həmin şəhər haqqında müəyyən bir assosiasiya yaranır. Məsələn, Paris dedikdə Avropa aristokratiyasının mərkəzi, məşhur Eyfel qülləsi, Venesiya dedikdə adalar bolluğunda yaradılmış “sevgi və romantika şəhəri”, İstanbul dedikdə möhtəşəm asma körpüləri ilə Avropa və Asiyanı birləşdirən böyük bir meqapolis, Nyu-York dedikdə “göydələnlər şəhəri” və sair düşünürük. Təbii ki, bütün dünya xalqları da qeyd etdiyimiz bu şəhərləri belə düşünür və qəbul edirlər, eyni zamanda adları çəkiləndə onları görmək arzusunu dilə gətirirlər. Çünki qeyd etdiyimiz bu şəhərlər brend şəhərlərdir. Məsələnin mahiyyətinə varmaq üçün bu şəhərlərin birinin – Parisin üzərində təhlil aparaq. Şəhər brendinq haqqında düşüncələrimizə keçməzdən əvvəl Parisin insanların düşüncəsində hansı hiss və fikirləri yaratdığına diqqət edək. Başlayaq Eyfel qülləsindən. Bu qüllə tikilən zaman çoxları bundan narazı idi. Ancaq şəhəri ən gözəl seyretmə nöqtəsi və bənzərsizliyi baxımından bu gün Fransa iqtisadiyyatına milyonlarla avro pul qazandırır. Bundan əlavə, Paris muzeylər şəhəridir və dünyaca məşhur Luvr muzeyi burada yerləşir. İstər məşhur Noterdam kilsəsi, istər şahzadələr sarayı Versal buranı turistlər üçün mükəmməl obyektə çevirir. Paris həm də teatrlar şəhəridir. Şəhərdə fəaliyyət göstərən çoxsaylı teatrlar buranın elit mərkəzə çevrilməsində mühüm rol oynayır. Bütün bu parametrlərinə görə Avropanın bu gözəl şəhəri insanları daim özünə cəlb edir. Vurğulamaq lazımdır ki, brend şəhərlərin “tərcümeyi-halı”nda tarixilik əsas rol oynasa da, sürətli və düşünülmüş iqtisadi tərəqqi bəzən buna kölgə salmağı da bacarır. Məsələn, “yeni şəhər” mənasını verən “Nyu-York”un tikintisinə iki yüz ildən bir az əvvəl başlanılıb. Ancaq mühəndislik möcüzəsinin dünyaya bəxş etdiyi bu şəhər indi çoxlarını təəccübləndirir. Bir zamanlar hindu qəbilələrinin ova getdikləri torpaq cığırların yerində indi dünyanın ən bahalı küçə və prospektləri yerləşir”.

Deməli, buradan belə bir nəticəyə gəlmək olur ki, turistlər üçün əsl maraq getdikləri ölkədə və yaxud şəhərdə yerləşən ünvanların onlar üçün bir hiss, duyğu yaratmalarıdır. Bu duyğunun yaradılmasında əsas rolu isə brendinq siyasəti oynayır. Müasir dövrdə brendə fokuslaşma bir, uzağı iki-üç obyekt üzərində qurulur. Çünki istənilən turist hər hansı bir ölkəyə və yaxud şəhərə bir obyekti görmək üçün gəlmir, getdiyi yerlərdə həmin bölgənin tarixi, mədəniyyəti, dəyərləri və adlarını sadalamadığımız bir çox tərəfləri ilə tanış olmağa maraqlı olur. Naxçıvan qədim tarixi, mədəni zənginliyi, milli və mənəvi dəyərlərə bağlılığı ilə istənilən əcnəbi turist üçün maraqlıdır. Bəs bu maraqlı tərəflərin hansı Naxçıvanın brendləşməsində rol oynaya bilər? Tarixi və təbiət abidələri, yeni tikililər, gözəl təbii mənzərələr, yoxsa milli dəyərlər? Təbii ki, bütün bunlar bir-birindən ayrılmaz tərəflərdir. Belə olan təqdirdə Naxçıvanın düzgün brendinq siyasəti bizə daha çox nəyin üzərində düşünməyə imkan verir? Yada salaq ki, bizim Gəmiqaya, Əshabi-Kəhf, Duzdağ kimi yaşı çox-çox qədimlərə gedib çıxan abidələrimiz, yaranışdan bəri bu torpağın köksündən axan mineral bulaqlarımız, tarixi yüzillərə dayanan memarlıq incilərimiz, yaşı elə tarixin özü qədər qədim olan dəyərlərimiz var. Yəni bu sadaladıqlarımızdan hansı turistlər üçün daha təsirli emosiya mənbəyi ola bilər? Fikrimizcə, məsələyə yanaşmada tarixilik faktoru daha öndə görünür. Belə olan təqdirdə Naxçıvanı digər coğrafi ərazilərdən fərqləndirən əsas amillərdən biri və ən qədimi diyarın Nuh Peyğəmbərlə bağlılığıdır. Çünki Ulu Yaradan bu müqəddəs torpağa öz ilahi hökmünü və dəyərini Nuh Peyğəmbəri məhz burada quruya çıxarmaqla verib. Bəşəriyyətin ikinci dəfə yaranış tarixinin başlanğıcına şahidlik etmiş bu torpaq Naxçıvanın istənilən əcnəbiyə tarixə olduğu kimi və ədalətli baxmaq iddiasından xəbər vermirmi? Onda nəyə görə bu qədim Azərbaycan torpağının ölkəmizdən kənar təbliğində bu əlahəzrət faktdan yararlanmayaq? Həm də nəzərə alaq ki, bunun üçün müəyyən elmi dəlillər və tarixi mənbələr var, son onillikdə dövlət tərəfindən bu sahədə önəmli addımlar atılıb. Məhz bu nöqteyi-nəzərdən Naxçıvanın brend şəhərə çevrilməsində bu tarixi bağlılıq mühüm rol oynaya bilər. Ancaq unutmayaq ki, brend amili özlüyündə kifayət qədər dəqiq, düşünülmüş, müəyyən hədəflərə malik iqtisadi strategiya üzərində qurulur və təbliğ edilir. Bu strategiyanın qurulmasında və inkişaf etdirilməsində elə metodlardan istifadə olunur ki, bu metodların təsiri insanların (yerli və əcnəbi sakinlər) düşüncəsində məxsusi yer tutur. Fikrimizi misallar üzərində izah edək. Məsələn, Rusiya Federasiyasının Rostov-Don şəhərindəki irili-xırdalı yüzlərlə obyektin adında (Don-kafe, Don-market, Don-otel və sair) “Don” sözünə rast gəlmək mümkündür. Və yaxud müasir Peterburqda “Piter” sözü ilə başlayan xeyli ünvanlar var. Bu misalı Türkiyənin, Avropanın bir sıra şəhərlərinə də aid etmək olar. Burada əsas məqsəd şəhərin müvafiq amilə bağlılığını daim insanlara hiss etdirməkdir. Düşünürük ki, Naxçıvanın brend şəhərə çevrilməsi yönündə Nuhla bağlı obyektlərin sayının artırılması bu istiqamətdə ilk addımlardan ola bilər. Məsələn, ötən il Naxçıvan şəhərində “Nuh yurdu” restoranının istifadəyə verilməsi təqdirolunası haldır. Və yaxud Türkiyə Respublikasının İqdır şəhərinə işləyən marşrut avtobuslarının üzərindəki “Nuh yurdu” yazıları hər birimiz üçün qürurvericidir. Xüsusilə Nuhun adını daşıyan yeni ünvanların (otel, ticarət obyekti, park, daxili turizm marşrutu xətti, istirahət kompleksi və sair) yaradılması, “gəzən reklamların” fəaliyyətə başlaması (üzərində Nuhla bağlı reklam yazıları olan daxili nəqliyyat vasitələri) Naxçıvanın Nuh diyarı kimi təbliğində əhəmiyyətli rol oynaya bilər. Çünki “Nuh” adı muxtar respublikaya gələn istənilən əcnəbinin dilində, foto və videokamerasının yaddaşında və yaxud qələm əhlidirsə, yazacağı materiallarda zəruri qeyd edəcəyi terminlərdən olacaq. Bu isə zamanla hər kəsin düşüncəsində Naxçıvanın qədim Nuh diyarı olduğu qənaətini gücləndirən faktora çevriləcəkdir. Yeri düşmüşkən, ermənilər uzun müddətdir ki, Türkiyə Respublikası ərazisində yerləşən Ağrı dağına əsassız iddialar irəli sürürlər. Onlar Ermənistanda istehsal edilən müxtəlif məhsulların üzərində Ağrı dağının emblemindən istifadə etməkdən belə, çəkinmirlər. Çünki tarixi mənbələrdə Nuhun gəmisinin Ağrı dağına dəyib dayanması ilə bağlı faktlar var. Tarixi saxtakarlaşdırmaqda əsl peşəkar olan ermənilər bütün dünyaya öz əcdadlarının birbaşa Nuhla əlaqəli olduğunu çatdırmaq istəyirlər. Biz nəyə görə haqlı olaraq Nuhla bağlı diyarın qədimliyi üzərində Naxçıvanın təbliğini aparmayaq?

*Təbii ki, adicə bir məhsulun brendə çevrilməsi bəzən onillərə başa gəlir. Şəhərlər də belədir. Naxçıvanın bu gün turistlərə, ümumilikdə isə dünyaya təqdim edəcəyi çox ünvanları var. Əsas olan odur ki, diyarın sakini kimi hər birimizin bu sahədə əməyi olsun. Naxçıvanın brendə çevrilməsi ona görə vacibdir ki, bu diyarın adı çəkiləndə istənilən əcnəbi tarixin və yaranışın ona çox yaxın olduğunu hiss etsin.*

**Səbuhi HƏSƏNOV**

Milli dəyərlərimizi öyrənək və yaşadaq

# Bu xına o xınadan deyil...

**_Elimizin gözəl toy adət-ənənələri vardır ki, min illər boyu yaşayıb günümüzə gəlib çatıb. Bunlar sırasında bir adət var ki, bütün subay qızların həvəsində olduğu, bütün anaların görmək istədiyi bir mərasimdir: xınayaxdı mərasimi. Düzdür, bir müddət bu, unudulsa da, son illər bu mərasim yenidən keçirilməyə başlanılıb. Toydan bir neçə gün əvvəl qız evində gəlin köçən qıza xına yaxılır._**

Bu mərasim Naxçıvanda özünəməxsus şəkildə təşkil olunur. Ordubadın bəzi kəndlərində xınayaxdı “qızbaşı” adlanır. Bununla bağlı qısa araşdırma apardıq. Xına ilə bağlı bir rəvayətdə deyilir ki, nənəsi atadan-anadan yetim qalmış bir qızı sevindirmək üçün əllərinə xına qoyardı. Hər xına qoyduqca qız əl çalıb oynayarmış. Artıq bu, adət şəklini alır. Nəhayət, qız böyüyüb ailə qurarkən əlinə xına qoyanda, yenə nənəsinin qabağında oynayanda nənəsi bu ifadəni işlədir: “Qızım, bu xına o xınadan deyil”. Naxçıvanda bu deyim hər hansı bir fikri dəyişdirmək məqsədilə də işlədilir.

Xınayaxdı mərasiminə keçməmişdən əvvəl xına barədə bir neçə kəlmə yazmaq da yerinə düşər. Gözümüzü açandan bəri nənələrimizin saçını xınalı görmüşük. Böyük sevinclə əlimizə xına çəkib ürəyimizdə arzu-niyyət tutmuşuq. Böyüklərimizdən də xına çəkənin həm muradına yetişəcəyini, həm də xınanın bizi bəd nəzərlərdən qoruyacağını eşitmişik. Bəli, xına bizim üçün olduqca dəyərlidir. Xına çox qədim zamanlardan Azərbaycan türklərində və digər türk xalqlarında şadlıq, sıxıntıdan-yasdan çıxma rəmzidir.

Bir məsələni vurğulayaq ki, XX əsrin 70-ci illərində Naxçıvan xına bitkisinin yetişdirilməsi və istehsalında xüsusilə fərqlənib. Muxtar respublikamızın münasib torpaq-iqlim şəraiti burada yüksəkkeyfiyyətli xına yetişdirilməsinə imkan yaradıb. 1975-ci ildən başlayaraq əldə olunmuş xına toxumları istixana şəraitində becərilib, daha sonra şitilləri açıq tarla şəraitində sınaqdan keçirilib. Əldə olunan yüksək keyfiyyət göstəriciləri nəticəsində xınanın muxtar respublikamızda geniş şəkildə becərilməsinə başlanılıb, Babək və Şərur rayonlarında xınaçılıq təsərrüfatları yaradılıb. Yüksəkkeyfiyyətli xına istehsal olunaraq “Naxçıvan hənası” adlı xüsusi bağlamalarda satışa çıxarılıb. Naxçıvan xınası nəinki ölkəmizdə, onun hüdudlarından kənarda da məşhurlaşıb. Lakin bir müddət mövcud olan gərgin ictimai-siyasi şərait xınaçılığın inkişafında durğunluq yaradıb, bu qiymətli bitkinin istehsalı dayanıb.

AMEA Naxçıvan Bölməsinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru, dosent Asəf Orucov Naxçıvanda xına ilə bağlı çoxlu rəvayətlər olduğunu deyir. Bir rəvayətə görə, bir gəlin yağıdan, düşməndən öz namusunu qorumaq məqsədilə kəklik quşuna çevrilmək üçün Allaha dua edib. Tanrı da onun duasını qəbul edib kəkliyə çeviribdir. İndi Naxçıvanda kəkliyə xınalı kəklik deyirlər.

Bəs Naxçıvanda xınayaxdı mərasimləri necə keçirilir?

– Xınayaxdı mərasimi mahiyyət etibarilə qız toyu deməkdir və gəlinin ata evindəki son gününün qeyd olunmasıdır. Bu mərasimdən sonra qız ata evini tərk edib ər evinə köçür. Maraqlıdır ki, təsəvvürə görə xına “peyğəmbər nişanəsi” sayılıb. Ancaq onu qeyd edim ki, bu düşüncə sonraların məhsuludur. Adət kimi isə xınayaxdı İslama qədər də mövcud olub.

Xınayaxdı mərasiminə bir gün qalmış xınaya xınagülü qatılır və yaxşı dəmlənmiş qara çayda isladılır. Gəlin evi milli qaydalara görə bəzədilir. Adətən, bu mərasim üçün qız anası öncədən qırmızı rəngli, sarı saplarla işləməli-naxışlı xüsusi mütəkkələr və nimdərlər (döşəkçələr) hazırlayır. Mərasim xına nimçəsi olan sininin ələ alınıb oynanılması ilə başlayır. Sinidə mütləq alma olur, almaya xüsusi çöplər sancılır, qızlar o çöpləri xınaya salaraq əllərinə yazılar yazırlar. Xına sinisində şirniyyat, konfet də olur. Xına yaxanlar sinidəki şirnilərdən götürüb əvəzində nəmər qoymalıdır. Birinci nəmər isə oğlan evinin böyüyündən – ya oğlan anasından, ya da oğlan bacısından gəlir. Oğlan evi nəmər salandan sonra xına gəlinin ayaqlarına və əllərinə çəkilir və qonaqlara ötürülür. Gəlinin qarşısına su ilə doldurulmuş kasa qoyulur. Xınanı payladıqdan sonra oğlanın qohumlarının gətirdiyi zinət əşyalarının gəlinə təqdim olunması başlanır. Bu hədiyyələrdə bəyin valideynlərinin gəlin üçün gətirdiyi zinət əşyaları ilə yanaşı, qohumlarının da payı olur. Xınayaxdı mərasimində bir sıra mahnılar ifa olunur; gəlinin ətrafına toplanmış qızgəlinlər “Xınayaxdı”, “Əllərə xına yaxanlar”, “Aman nənə” kimi mahnıları oxuyurlar.

Xınayaxdıda da, qız toyunda da mahnılar çox vaxt “Tək qaval” adlanan prinsiplə oxunar. Qızlar, qadınlar dövrə vurub əyləşər, onlardan biri – solist əlində qaval ortada otur. Oxunan mahnıların nəqəratını dövrə vuranlar xor şəklində oxuyur, solist isə qaval çala-çala mahnıların bəndini misra-misra ifa edir. Hər misradan sonra xor ona nəqəratla cavab verər. Xınayaxdıların bayatıları da bol olub, amma günümüzə qədər çox az sayda bayatı gəlib çıxıb. Naxçıvana xas olan özünəməxsusluqlardan biri bu mərasimlərdə qızların, gəlinlərin qız evinə daxil olan kimi cərgə ilə düzülüb haxışta demələridir. Buna Naxçıvanda çox vaxt “haxışta getmək” deyirlər. Qızlardan biri haxıştada dördlüyü söyləyir, o biri qızlar isə “haxışta” deyərək ritm tuturlar.

*Ay dolanıb batmağa,*
*Yuxum gəlmir yatmağa.*
*Qardaşım xına göndərib*
*Gəlin əlinə yaxmağa.*

Bu hazırlanan xınadan hamı çeçələ barmağına qoyur, gəlin də nişanlısının adının baş hərfini sağ əlinə, öz adının baş hərfini isə sol əlinə yazır. Sonra evdə “xınayaxdı” məclisində iştirak edənlərin hamısına xına paylanılır. Onlar da, öz növbəsində, bir balaca xınadan ovuc içinə və barmaqlarına sürtə bilərlər. Oğlan üçün də həmin xınadan onun evinə göndərirlər ki, o da əlinə yaxsın.

Təəssüf ki, xınayaxdı mərasimi “müasirləşdirilərək” “xına gecəsi” adlanır və bu gecədə toy sahibi az qala toyda çəkəcəyi xərc qədər xərc çəkir. Daha pis cəhət ondadır ki, bəzi belə gecələrdə xına çəkilməsi, ümumiyyətlə, unudulur. Xınayaxdı mərasimi, sadəcə, əylənmək, yeyib-içmək üçün deyil, bu həm də Azərbaycan xalqının mentalitetini göstərən, xalqımızı dünyada özünəməxsus şəkildə tanıdan adət və ənənələrin toplandığı bir mərasimdir. Ulu babalarımızdan bizə yadigar qalan bu ənənələrimizə sədaqətli olmaq, onları qoruyaraq gələcək nəsillərə təhvil vermək isə bizim vətəndaşlıq borcumuzdur.

✍ **Sara ƏZİMOVA**

***Yay mövsümünü Şərur, Şahbuz, Culfa və Ordubad yaylaqlarında keçirən heyvandarlara, onların ailələrinə səhiyyə xidmətinin təşkili üçün Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi 2014-cü ildə xüsusi həkim briqadaları yaratmış, həmin briqadaların mövsüm ərzində daim yaylaqlara getməsi, burada müvəqqəti yaşayan əhalinin sağlamlığının qorunmasına xidmət etməsi təmin olunmuşdur. Obalarda yaşayan sakinlərin zəruri dərman vasitələri, sarğı materialları ilə təminatı, səhiyyə maarifi işi aparılması, mövsümi xəstəliklər, günvurma, ilan və əqrəb sancmaları, yaralanma zamanı ilk yardım barədə tibbi məsləhətlər verilməsi də diqqətdə saxlanılan məsələlərdəndir.***

## Obalarda kütləvi tibbi müayinələr aparılmışdır



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin cari ilin iş planına uyğun olaraq, yay mövsümünü yaylaqlarda keçirən heyvandarlara, onların ailələrinə göstərilən səhiyyə xidməti davam etdirilir.

Ordubad Rayon Mərkəzi Xəstəxanasının terapevt, kardioloq, cərrah, stomatoloq və pediatrlardan ibarət çoxprofilli həkim briqadası Göygöl ərazisindəki yaylaqlarda məskunlaşan heyvandarlara baş çəkmişdir. Hazırda təkcə “Tüklü çəmən” yaylağında 6 oba məskən salıb. Onların öhdəsində 3 min başa yaxın mal-qara, qoyun-quzu var. Çadırlarda Kəngərli rayonunun Çalxanqala kəndindən gəlmiş fermer və çobanlar Elyaz, Knyaz və Tahir Abdullayevlərin 18 ailə üzvü yaşayır. Briqadanın fəaliyyəti zamanı onların hamısı profilaktik tibbi müayinəyə cəlb olunmuş, pediatrik, kardioloji, cərrahi, stomatoloji müayinələr aparılmışdır. Yaylaqda arana nisbətən havaların sərin keçməsi səbəbindən obalardakı azyaşlı uşaqların bir qismində qulaqağrısı və yuxarı tənəffüs yollarının patologiyası müşahidə olunmuş, onların müalicəsi ilə bağlı lazımi dərmanlar verilmişdir.

Heyvandarlar onlara göstərilən tibbi xidmət üçün öz minnətdarlıqlarını bildirmişlər.

Ordubad Rayon Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən obalarda dezinfeksiya, dezinseksiya tədbirləri həyata keçirilmişdir.

Şahbuz Rayon Mərkəzi Xəstəxanasının həkim briqadası isə Kükü kəndi ərazisindəki Qanlıgöl yaylağında olmuşdur. Burada, əsasən, Şərur rayonundakı Mahmudkənd və Kəngərli rayonundakı Xok kəndlərindən gəlmiş heyvandarlar məskunlaşmışlar. Terapevt, LOR, cərrah, stomatoloq və pediatrlardan ibarət həkim briqadası heyvandarlar və onların 20 çadırda məskunlaşan ailə üzvlərini – bütövlükdə, 42 nəfəri profilaktik tibbi müayinələrdən keçirmiş, ilkin tibbi yardım üçün dərmanlar paylamışdır.

Culfa Rayon Mərkəzi Xəstəxanasının, Gigiyena və Epidemiologiya Mərkəzinin həkim briqadası isə ucqar dağ kəndi Ləkətağda olmuşdur. Dəmirli yaylağında məskunlaşan heyvandarların əksəriyyəti Babək rayonunun Nehrəm və Culfa rayonunun Camaldın kəndlərindən gələrək mövsümü burada keçirirlər. Heyvandarlığın inkişafına göstərilən dövlət qayğısı nəticəsində son illər bu yaylaqda saxlanılan davarların sayı ilbəil artır. Qoyun sürülərinin xeyli hissəsi iyirmi gün əvvəl Dəmirli və Kola yaylaqlarına qaldırılıb. Həkim briqadası heyvandarları tibbi müayinələrlə əhatə etmiş, dezinfeksiya tədbirləri həyata keçirmiş, sanitar maarifi işi aparmışdır.

Briqadaların fəaliyyəti zamanı mövsümi xəstəliklər, ilan, əqrəb sancması və ilkin tibbi xidmətin təşkili barədə səhiyyə maarifi işi aparılmışdır.

Şərur Rayon Mərkəzi Xəstəxanasının, Gigiyena və Epidemiologiya Mərkəzinin həkim briqadası isə həftə ərzində rayonun Tənənəm yaylağında heyvandarlara baş çəkəcəkdir.

Müayinələr mövsüm boyu davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Cüdo birinciliyi keçirilib

***İslam Hümbətov adına Uşaq-gənclər idman məktəbində məktəblilərin yay tətilinin səmərəli təşkil edilməsi məqsədilə kiçikyaşlı yeniyetmələr (2005-2007-ci illər təvəllüdlü) arasında cüdo üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.***



Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Elşən Rəfiyev tədbiri açıq elan edib və yarışın keçirilmə məqsədi haqqında idmançılara məlumat verib. Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov isə yarışın keçirilmə qaydaları haqqında idmançıları məlumatlandırıb.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası ilə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi birincilikdə 7 çəki dərəcəsi üzrə 40-a yaxın idmançı qüvvəsini sınayıb. Beynəlxalq Cüdo Federasiyasının mövcud qaydalarına əsasən keçirilən yarışda Heydər Zamanov, Xaspolad Tutayuq, Orxan Niftəliyev, Əsgər Səfərov, Əziz Hacıyev, Rauf Cabbarov və Rüfət Zeynallı müvafiq olaraq 23, 26, 29, 32, 35, 42 və 46 kiloqram çəki dərəcələrində bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olublar.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılar diplomlarla təltif ediliblər.

✍ **Ceyhun MƏMMƏDOV**

## 15 avqust 2016-cı il tarixdə Naxçıvan şəhərində hərraca çıxarılacaq müəssisə və avadanlıqlar haqqında məlumat

| Sıra №-si | Müəssisələrin və avadanlıqların adı | Ünvanı | İstismara verildiyi il | Obyektin tam dəyəri 100 % | Obyektin satış qiyməti | Behin həcmi 10 % |
|---|---|---|---|---|---|---|
| 1. | “Sədərək Tikiş Müəssisəsi” MMC | Sədərək rayonu | 2003 | 26020,44 | 13010,22 | 1301,02 |
| 2. | “Küküdağ Tikiş Müəssisəsi” MMC | Şahbuz şəhəri | 2003 | 68712,00 | 34356,00 | 3435,60 |
| 3. | “Sədərək Taxıl Emalı Müəssisəsi” MMC | Sədərək rayonu | 2004 | 122201,46 | 122201,46 | 12220,15 |
| 4. | “Dəstə Taxıl Emalı Müəssisəsi” MMC | Ordubad rayonu, Dəstə kəndi | 2005 | 104832,00 | 104832,00 | 10483,20 |
| 5. | Balın emalı və paketlənməsi üçün avadanlıq dəsti | Naxçıvan şəhəri, Xətai məhəlləsi, döngə 8, ev 9 | 2006 | 35893,00 | 17946,50 | 1794,65 |

**Qeyd:** Hərraclar Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində hərrac komissiyası tərəfindən keçirilir. Hərracda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər hərracın başlanmasına ən geci 3 (üç) bank günü qalanadək təqdim olunmalıdır:

1. Sifarişçinin şəxsiyyətini təsdiq edən sənəd
2. Müəyyən edilmiş formada sifariş
3. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş 10 faiz məbləğində behin Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ30NABZ12360150000000065944 nömrəli hesabına ödənildiyi haqda qəbz.

***Ünvan: Naxçıvan şəhəri, Atatürk küçəsi 42***
***Əlaqə nömrəsi: 545-01-38, 545-02-36***

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 538